**Azərbaycan Sahibkarlar Konfederasiyası Direktorluğunun**

**Sahibkarlarla iş və iqtisadi təhlil şöbəsinin müdiri vəzifəsinə vakansiya elan edir!**

**Əsas əmək funksiyaları:**

- Sahibkarlar və biznes assosiasiyaları ilə əməkdaşlıq əlaqələrinin qurulması;
- Sahibkarların müraciətlərinin qeydiyyatı və araşdırılması işinin təşkili;
- Sahibkarların qaldırdığı iqtisadi məsələlərin təhlili, onlara dair rəy, arayış və təkliflər hazırlanıb rəhbərliyə təqdim edilməsi;
- Sahibkarların qəbulu, zərurət olduqda onlara şifahi məsləhətlər verilməsi;
- Sahibkarlar üçün təlim və dəstək xidmətlərinin təşkili, onların icrasında iştirak;
- Özəl sektorla bağlı mediada yayımlanan iqtisadi məlumatlar və göstəricilərin təhlili;
- Bazar araşdırmaları məqsədilə sahibkarlar arasında sorğuların təşkili;
- Sahibkarlığın inkişafı sahəsində mütərəqqi layihələr, proqramlar və tədbirlər barədə təşəbbüslər irəli sürülməsi, onların hazırlanması və təşkilində iştirak;
- Konfederasiyanın üzvləri, komissiyaları və regional nümayəndələrinin zəruri məlumatlarla təmin edilməsi;
- Üzvlər, komissiyalar və regional nümayəndələrin reyestrinin aktuallığının təmin edilməsi;
- Üzvlər arasında işgüzar əlaqələrin qurulmasına təşkilati dəstək, onlar üçün təlim proqramlarının təşkili;
- Komissiyaların işinin təşkili, regional nümayəndələrin işinin koordinasiyası;
- Konfederasiyanın media vasitələri üçün şöbənin fəaliyyətinə dair məlumatların təmin edilməsi, monitorinq və təkliflər verilməsi;
- İcraatına verilən sənədlərin araşdırılması, müraciətlərin cavablandırılması;
- İcraatına verilən sənədlərə iqtisadi rəy, arayış və təkliflər verilməsi;
- Şöbədaxili hədəflərin müəyyən olunması və hədəflərin icrasına nəzarət;
- Şöbənin iş planı və fəaliyyətinin nəticələri barədə dövri hesabatların hazırlanması, dövri statistik bülletenlərinə nəzarət;
- Şöbə əməkdaşlarının vəzifə təlimatlarının hazırlanması, onların daxili intizam qaydalarına əməl etməsinə nəzarət və fəaliyyətinin qiymətləndirilməsi;
- Konfederasiyanın strateji hədəflərinin müəyyən edilməsi və strateji planının hazırlanmasında iştirak.

**Namizəd üçün tələblər:**

- Ali təhsil (biznes idarəetməsi / iqtisadi menecment ixtisaslarına üstünlük verilir);
- Azı 5 il iş təcrübəsi (biznes idarəetməsi / iqtisadi menecment və ya müştərilərlə iş sahəsində);
- İngilis dili bilikləri (əlavə rus dili bilikləri arzuolunandır);
- İqtisadi təhlil və proqnozlaşdırma bacarığı, kreativlik və təşəbbüskarlıq;
- Güclü kommunikasiya qurmaq bacarığı;
- Liderlik və komandanı idarəetmə bacarığı;
- Ofis proqramlarında işləmə bacarığı.

**İş şərtləri:**

- AR Əmək Məcəlləsinə uyğun əmək müqaviləsi;
- İş vaxtı 09:00 – 18:00;
- İş günü 5/2 (şənbə və bazar qeyri-iş günləridir).

**Məlumatlandırıcı qeydlər:**

- CV formanızın Word və yaxud PDF formatında hazırlanması məqsədəuyğundur;
- CV formasında əsas məlumatları lakonik və aydın qeyd edin.

Maraqlanan şəxslər CV-lərini **hr@ask.org.az** elektron ünvanına göndərə bilərlər. Məktubun mövzu hissəsində vəzifənin adı - “Sahibkarlarla iş və iqtisadi təhlil şöbəsinin müdiri” yazılmalıdır. Yalnız qeyd olunan tələblərə cavab verən CV-lərə baxılacaqdır.